# Azərbaycan Respublikası Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsi

## *Ev təsərrüfatlarında informasiya və kommunikasiya texnologiyalarından istifadəyə dair* seçmə statistika müayinəsinin aparılmasında iştirak etmək istəyən şəxslər üçün müsabiqə elan edir.

### Müayinə haqqında qısa məlumat

Ev təsərrüfatlarında informasiya və kommunikasiya texnologiyalarından istifadəyə dair seçmə statistika müayinəsi Naxçıvan Muxtar Respublikasının şəhər və rayonlarını əhatə edəcək və *2023-cü ilin 03 aprel - 03 may* tarixlərində sorğu yolu ilə həyata keçiriləcək.

### İşin xüsusiyyəti

Sorğunu aparan şəxsin işi ona təqdim edilmiş siyahı üzrə ev təsərrüfatlarına gedərək, seçmə statistika müayinəsinə dair müayinə formalarını doldurmaqla ev təsərrüfatları üzvlərindən məlumatlar toplamaqdır.

### Seçmə statistika müayinəsini aparan şəxsin öhdəlikləri

Seçmə statistika müayinəsini aparan şəxs:

1. Respondentlərin fərdi məlumatlarının, həmçinin ilkin statistik məlumatların konfidensiallığının qorunmasına dair yazılı iltizam verir.
2. Dövlət Statistika Komitəsi tərəfindən təşkil olunan bütün təlimlərdə, sahə məşğələlərində iştirak edir;
3. Seçmə statistika müayinəsi formasını və onun doldurulmasına dair göstərişi diqqətlə öyrənir;
4. Seçmədə ona təhkim olunmuş ev təsərrüfatlarını nəzarətçinin (yerli statistika orqanının rəhbəri tərəfindən təyin edilmiş şəxs) köməyi ilə müəyyən edir;
5. Özünü ev təsərrüfatı üzvlərinə təqdim edir və sorğunu aparmaq üçün icazə istəyir;
6. Müəyyənləşdirilmiş tələblərə uyğun olaraq ev təsərrüfatlarında sorğunu apararaq müayinə formalarını doldurur;
7. Respondentin diqqətini suallara cəlb etməklə, verilən məlumatların düzgünlüyünü təmin edir;
8. Ev təsərrüfatını tərk etməzdən əvvəl müayinə forması üzrə bütün sualların verildiyinə əmin olmaq üçün doldurulmuş formaların tamlığını yoxlayır;

### İxtisas və səriştə ilə bağlı tələblər

*Təhsil:* Ali, orta ixtisas və ya tam orta təhsil

*Bacarıqlar və təcrübə:*

- MS Office (word, excel) və ya digər proqramlar üzrə sərbəst işləmə bacarığı;
- Azərbaycan dilində sərbəst şifahi və yazılı ünsiyyət qurma bacarıqları.

Ev təsərrüfatı tədqiqatlarında, sorğularda, siyahıyaalmalarda və Dövlət Statistika Komitəsinin həyata keçirdiyi digər oxşar layihələrdə iş təcrübəsi olanlara üstünlük veriləcəkdir.

**Seçmə statistika müayinəsini aparan şəxsin xidmət haqqının ödənilməsi**

Sorğunu aparan şəxsə sorğunun aparıldığı günlər ərzindəki hər gün üçün 24,0-25,0 manat xidmət haqqı hesablanacaqdır.

**Ərizəçilər 03.04.2023-cü il tarixədək aşağıdakı sənədləri işləmək istədikləri rayonun (şəhərin) statistika idarəsinə yaxud Naxçıvan Muxtar Respublikasının Dövlət Statistika Komitəsi Aparatının Ümumi şöbəsinə təqdim etməlidirlər:**

- şəxsiyyət vəsiqəsinin surəti;
- təhsil haqqında dövlət sənədinin (diplom və yaxud attestat) surəti.

Əlaqə nömrəsi: 036-545-94-09

Müsahibədən uğurla keçən namizədlərlə mülki-hüquqi müqavilə bağlanacaqdır.